AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

*Əlyazması hüququnda*

SÜLEYMANOV VURĞUN ELXAN OĞLU

# DÖVLƏTİN İNVESTİSİYA FƏALİYYƏTİNİN SƏMƏRƏLİLİYİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ

**İxtisas: 08.00.05 – "Xalq təsərrüfatının iqtisadiyyatı və idarə edilməsi (makroiqtisadiyyat)"**

**iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

BAKI - 2009

AMEA İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU

Dissertasiya işi Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunda yerinə yetirilmişdir.

Elmi rəhbər: Azərbaycan MEA-nın həqiqi üzvü
**Nadirov Asəf Abbasqulu oğlu**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
**Əlirzayev Əli Qəmbərəli oğlu**
iqtisad elmləri namizədi
**Ağayeva Könül Asəf qızı**

Aparıcı təşkilat: Azərbaycan MEA-nın İqtisadiyyat İnstitutu

Müdafiə «29» may 2009-cu il saat «14:00» -da Azərbaycan Dövlət İqtisad Universitetində iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün D.02.051 Dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti.

Dissertasiya işi ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat "28" aprel 2009-cu ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
iqtisad elmləri namizədi, dosent **Z.İ.Mustafayeva**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

***Mövzunun aktuallığı.*** Bazar münasibətləri şəraitində ölkədə iqtisadi inkişafın təmin olunması həyata keçirilən iqtisadi islahatların səmərəliliyindən, elmi cəhətdən əsaslandırılmış sosial-iqtisadi inkişaf proqramlarının işlənməsindən və onların həyata keçirilməsindən çox asılıdır.

Müasir dövrdə Azərbaycanın sosial-iqtisadi inkişafı onun dünya bazarında rəqabətqabiliyyətindən asılıdır. Milli iqtisadiyyatın rəqabətqabiliyyətinin yüksəldilməsi isə iri həcmli investisiya qoyuluşlarının həyata keçirilməsini tələb edir. Ölkədə həyata keçirilən uğurlu neft strategiyası milli iqtisadiyyatın inkişafının maliyyələşdirilməsi üçün zəruri vəsaitlərin formalaşmasına gətirib çıxarmışdır. Lakin bu vəsaitlərin bölgüsü, iqtisadi inkişafın davamlılığının təmin olunması və keyfiyyətinin yüksəldilməsi, həyata keçiriləcək dövlət siyasətindən asılıdır. Xüsusilə, gələcəkdə neft kontraktlarından əldə edilən gəlirlər hesabına ölkədə həyata keçirilən investisiya qoyuluşlarının əhəmiyyətli hissəsi dövlət tərəfindən həyata keçiriləcəkdir. Belə şəraitdə investisiya qoyuluşları haqqında əsaslandırılmış qərarların verilməsinin əhəmiyyəti artır. Bütövlükdə, investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin əhəmiyyəti investisiyanın iqtisadi artım tempini, iqtisadiyyatın strukuturunu, iqtisadi səmərəliliyin yüksəldilməsini müəyyən etməsi ilə əlaqədardır. Ölkə iqtisadiyyatının strukturunun optimallaşdırılması, onun yeni keyfiyyət xarakterisitikası kəsb etməsi dövlətin səmərəli investisiya siyasətindən bilavasitə asılıdır.

Müasir dövrdə ölkə iqtisadiyyatının diversifikasiyası, regionların tarazlı inkişafının təmin olnuması, yoxsulluğun azaldılması investisiya prosesinin aktivləşdirilməsindən asılıdır. Hazırda dövlətin qarşısında duran mühüm vəzifələrdən biri ölkədə investisiya fəaliyyəti üçün mühitin daha da təkmilləşdirilməsi və özəl bölmənin investisiya fəallığının stimullaşdırılmasından ibarətdir. Bazar münasibətləri şəraitində bu məsələlərin səmərəli həlli üçün investisiya fəaliyyətinin tənzimləmə metodlarından optimal istifadə edilməli, vergi, gömrük və s. sahələrdə həyata keçirilən tədbirlərlə dövlətin investisiya fəaliyyəti sahəsində qarşıya qoyduğu məqsədlər əlaqələndirilməlidir. Xüsusilə, dövlət tərəfindən həyata keçirilən investisiya qoyuluşlarının iqtisadi inkişafa, özəl bölmədə investisiya fəallığının artırılmasına təsirinin müəyyən edilməsi və bunun əsasında səmərəli dövlət investisiya proqramının tərtibi tələb olunur.

Bütün qeyd edilənlər dövlət investisiya fəaliyyətinin səmərəliliyinin yüksəldilməsi məsələlərinin tədqiqinin əhəmiyyətini müəyyən edir.

***Problemin öyrənilmə səviyyəsi.*** Azərbaycanın iqtisadçı alimlərindən A.A. Nadirov, Z.Ə.Səmədzadə, Ş.M.Muradov, Ə.X.Nuriyev, Ə.Q.Əlirzayev, M.M.Sadıqov, R.M.Cəbiyev, A.Ş.Şəkərəliyev, R.A.Quliyev, R.T.Həsənov, T.Ə.Hüseynov, V.Ə.Rüstəmov və başqaları investisiya fəaliyyətinin problemlərinə dair dəyərli

tədqiqatlar aparmışlar. İnvestisiya nəzəriyyəsi iqtisad elminin mühüm sahəsi kimi, bütün iqtisad məktəbləri tərəfindən tədqiq edilmiş və bu məsələlər D.Rikardo, C.Keyns, E.Domar, R.Xarrod, C.Xiks, U.Şarp, Q.Aleksander, V.V.Bulatov və s. xarici alimlərin əsərlərində geniş əks olunmuşdur. Lakin Azərbaycanda bazar münasibətləri şəraitində dövlət investisiya fəaliyyətinin nəzəri və praktiki məsələləri kifayət qədər öyrənilməmişdir. Bu baxımdan, bazar iqtisadiyyatı şəraitində Azərbaycan Respublikasında dövlət investisiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi və onun yüksəldilməsi məsələlərinə aid elmi araşdırmaların aparılması mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir. Beləliklə, sözügedən problemin aktuallığı və onun kifayət qədər öyrənilməməsi dissertasiya mövzusunun seçilməsini şərtləndirmişdir.

***Tədqiqatın məqsəd və vəzifələri.*** Tədqiqatın məqsədi bazar münasibətləri şəraitində dövlət tərəfindən həyata keçirilən investisiya fəaliyyətinin kompleks təhlili əsasında onun səmərəliliyinin yüksəldilməsi yollarını müəyyənləşdirmək və bu istiqamətdə elmi cəhətdən əsaslandırılmış təklif və tövsiyələr işləyib hazırlamaqdan ibarətdir. Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- investisiyanın mahiyyətinin açıqlanması və onun iqtisadi inkişafda rolunun müəyyən edilməsi;
- investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsini şərtləndirən amillərinin öyrənilməsi;
- dövlət investisiya fəaliyyətinin formalaşması xüsusiyyətlərinin və amillərinin araşdırılması;
- dövlətin investisiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsinin metodoloji məsələlərinin öyrənilməsi;
- ölkədə investisiya fəaliyyətinin və investisiya mühitinin mövcud vəziyyətinin kompleks təhlili əsasında dövlət investisiya siyasətinin səmərəliliyinin qiymətləndirilməsi;
- ölkədə investisiya qoyuluşlarının prioritet istiqamətlərinin müəyyən edilməsi;
- dövlət investisiya fəaliyyətinin səmərəlililiyinin yüksəldilməsi və investisiya mühitinin yaxşılaşdırılması yollarının müəyyənləşdirilməsi.

***Tədqiqatın nəzəri və metodoloji əsasını*** iqtisad elminin klassiklərinin və aparıcı iqtisadçı-alimlərin əsərləri, Azərbaycan Respublikasının müvafiq qanunları, Respublika Prezidentinin fərmanları, Nazirlər Kabinetinin qərar və sərəncamları, digər hüquqi-normativ sənədlər təşkil edir. Tədqiqat işində, klassik, neoklassik və keynis nəzəriyyələrinin investisiya problemlərinə dair müddəalarına istinad edilmişdir.

Tədqiqat işində müqayisə, iqtisadi statistik təhlil, elmi abstraksiya, proqram məqsədli yanaşma və s. üsullardan istifadə olunmuşdur.

*Tədqiqatın informasiya bazasını* Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin və İqtisadi İnkişaf Nazirliyinin məlumatları, Milli Bankın və digər dövlət qurumlarının ilkin hesabatları, elmi-praktik konfransların materialları təşkil edir.

*Tədqiqatın obyekti* kimi Azərbaycan Respublikasında dövlətin investisiya fəaliyyəti seçilmişdir.

*Tədqiqatın predmetini* bazar münasibətləri şəraitində dövlətin investisiya fəaliyyəti və onun səmərəliliyinin yüksəldilməsi probleminin tədqiqi təşkil edir.

*Tədqiqatın elmi yeniliyi* aşağıdakılardan ibarətdir:

- investisiyanın iqtisadi inkişafda rolu açıqlanmış və investisiya fəallığına təsir edən amillər müəyyən edilmişdir;
- investisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin obyektiv şərtləri və əsasları açıqlanmışdır;
- dövlət investisiya fəaliyyətinin formalaşması xüsusiyyətləri müəyyən edilmişdir;
- ölkədə dövlət investisiya fəaliyyətinin səmərəliliyi qiymətləndirilmişdir;
- ölkədə investisiya qoyuluşlarının prioritet istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır;
- dövlət investisiya fəaliyyətinin səmərəlililiyinin yüksəldilməsinə və investisiya mühitinin yaxşılaşdırılmasına dair təklif və tövsiyələr hazırlanmışdır.

*İşin praktiki əhəmiyyəti* ondan ibarətdir ki, tədqiqatın əsas müddəalarından və nəticələrindən, işdə irəli sürülən təklif və tövsiyələrdən istifadə edilməsi dövlət investisiya siyasətinin səmərəliliyinin yüksəldilməsinə, investisiya mühitinin yaxşılaşdırılmasına kömək edəcəkdir.

*İşin aprobasiyası və nəticələrinin tətbiqi.* Tədqiqatın əsas müddəaları, əsaslandırılmış təklif və tövsiyələr 2007-ci ildə Qafqaz Universitetində "Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya" mövzusunda keçirilmiş II Beynəlxalq konfransda və Bolqarstanın Varna şəhərində "Sənayedə və təhsildə keyfiyyət strategiyası" mövzusunda keçirilmiş beynəlxalq konfransda məruzə edilmişdir. Tədqiqat işinin mövzusu üzrə ümumi həcmi 3.0 ç.v. həcmində məqalə və tezislər çap olunmuşdur Bundan başqa, dissertasiyanın əsas müddəalarından dövlət investisiya proqramlarının tərtibi prosesində də istifadə edilə bilər.

*Dissertasiyanın quruluşu və həcmi.* Dissertasiya işi giriş, üç fəsil, nəticə, təklif və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYA İŞİNİN QURULUŞU

Giriş
**I fəsil. Bazar münasibətləri şəraitində dövlət investisiya fəaliyyətinin nəzəri-metodoloji əsasları**
1.1. İnvestisiyanın məzmunu və iqtisadi inkişafda onun rolu
1.2. Bazar iqtisadiyyatında investisiya fəaliyyətinin dövlət tənzimlənməsi mexanizmi və investisiya siyasətinin formalaşması amilləri
1.3. Dövlət investisiya fəaliyyətinin səmərəliliyi və onu müəyyən edən amillər
**II fəsil. Azərbaycanda investisiya fəaliyyətinin müasir vəziyyəti və onun dövlət tənzimlənməsi**
2.1. Azərbaycanda investisiya fəaliyyətinin mövcud vəziyyətinin təhlili
2.2. Keçid iqtisadiyyatı şəraitində investisiya mühitinin qiymətləndirilməsi
2.3. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi mexanizminin səmərəliliyi
**III fəsil. Azərbaycanda dövlət investisiya fəaliyyətinin prioritetləri və onun səmərəliliyinin yüksəldilməsi istiqamətləri**
3.1. Azərbaycanda investisiya qoyuluşlarının prioritetləri
3.2. Dövlətin investisiya fəaliyyətinin səmərəlililiyinin yüksəldilməsi yolları
3.3. Dövlət tərəfindən əlverişli investisiya mühitinin formalaşdırılması istiqamətləri
**Nəticə**
**İstifadə edilmiş ədəbiyyat**

## DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

**1. Bazar münasibətləri şəraitində investisiya fəallığının nəzəri əsasları.**

Ölkənin iqtisadi sisteminin səmərəli fəaliyyətində və iqtisadi artımın təmin olunmasında investisiya qoyuluşlarının həcmi və strukturu əsas rol oynayır. Ölkədə investisiya fəaliyyəti hesabına milli iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi, texniki tərəqqinin təmin olunması, məşğulluq və gəlirlərin səviyyəsinin artırılması və s. kimi məsələlər həll edilir.

İnvestisiya makroiqtisadi baxımından ölkədə çəkilən xərclərin əhəmiyyətli və dəyişən hissəsidir və onun azalması və ya artması məcmu tələbə ciddi təsir etməklə ölkədə məhsul və xidmətlərin buraxılışına və məşğulluğun səviyyəsinə təsir göstərir. Digər tərəfdən, investisiya ölkədə kapitalın yığımına gətirib çıxarır ki, bu da ölkənin istehsal imkanlarının artması hesabına məhsul və xidmətlərin buraxılışı potensialını artırır. Beləliklə, investisiya qısamüddətli dövrdə məcmu tələbin, uzunmüddətli dövrdə isə məcmu təklifin artmasına təsir göstərir.

Klassik nəzəriyyəyə görə ölkə iqtisadiyyatında investisiyanın həcmi faiz dərəcəsindən asılıdır və bu invesitisiya xərclərinin mənbəyi yığımdır (qənaətdir). Qənaət və investisiya qarşılıqlı əlaqəli kateqoriyalardır. Belə ki, qənaət potensial investisiya, investisiya isə reallaşdırılmış qənaətdir. Klassik iqtisadçılar hesab edirdilər ki, insanlar əldə etdiyi gəlirlərin bir hissəsini istehlak etməyib qənaət edirsə, onda bu vəsaitləri likvid formada saxlamır və ondan gəlir götürməyə çalışırlar. Bu zaman əgər faiz dərəcəsi artırsa, onda qənaətin də həcmi artır, əks halda isə azalır. Ölkədə investisiya qoyuluşlarının həcmi mənfəət norması və faiz dərəcəsinin nisbətində formalaşır. Əgər mənfəət norması faiz dərəcəsindən yüksəkdirsə, onda qənaət edilmiş vəsaitlərin borc kimi cəlb olunmasına tələb yaranır, əks halda isə sahibkar bu vəsaitləri təsərrüfat dövriyyəsinə cəlb etmir. Bu baxımdan, klassik iqtisadçılar ölkədə investisiyanın və qənaətin həcminin faiz dərəcəsindən asılı olduğunu göstərirdilər.

Keynis nəzəriyyəsinə görə investisiya xərcləri məcmu xərclərin tərkib hissəsi olmaqla iqtisadi inkişafın əsas amillərindən biridir. Klassik iqtisadçılardan fərqli olaraq keynisçilər qənaəti ümumi milli gəlirdən, investisiyanı isə faiz dərəcəsindən və mənfəət normasından asılı hesab edirdilər. İnvestisiya xərclərinin artımı multiplikativ səmərə yaradır ki, bunun nəticəsində də ölkədə bu artımdan çox əlavə tələb yaranır. Elmi-texniki tərəqqinin və istehsal resurslarının qiymətinin mövcud səviyyəsində müəyyən həcmdə məhsulun istehsalı üçün zəruri olan investisiya qoyuluşularının həmin məhsulun həcminə olan nisbətinin sahibkarlar tərəfindən normal hesab edilən səviyyəsi mövcud olur. Bu akselerator adlanır. Ölkədə tələbin artımına müvafiq olaraq firmalar özlərinin istehsal gücünü artırmaq məqsədilə akseleratorla müəyyən olunan investisiya qoyuluşları həyata keçirirlər.

Digər tərəfdən, firmalar investisiya qoyuluşu haqqında qərarı bazar konyukturası haqqında məlumatlar əsasında qəbul edirlər. Belə ki, əgər bazarda tələb artırsa və müəssisənin istehsal gücü bu tələbi ödəmək səviyyəsində deyilsə, onda əlavə investisiya qoyuluşu həyata keçirilə bilər. Lakin sahibkar investisiya qoyuluşunu həmişə tələb artdıqda deyil, yalnız bu tələbin sabitliyinə inam yarandıqda həyata keçirir. Keynis nəzəriyyəsinə görə iqtisadi artım tempi yığıma meyillik və investisiya qoyuluşlarının həcmi və səmərəliliyindən asılıdır.




Şəkil 1. Dayanıqlı inkişafla investisiya qoyuluşu arasında əlaqə

Bütövlükdə, investisiya qoyuluşunun ölkədə davamlı sosial-iqtisadi inkişafa təsir istiqamətləri şəkil 1-də verilmişdir.

İnvestisiya qoyuluşlarının həcminə əsasən üç amil təsir göstərir. Bunlardan birincisi, faiz dərəcəsinin səviyyəsi ilə əlaqədardır. Ölkədə sahibkarlar hətta investisiya qoyuluşlarını öz vəsaitləri hesabına həyata keçirsələr də, faiz dərəcəsi pulun alternativ dəyəri kimi investisiya qərarlarına təsir göstərir. İnvestisiyanın həcmi isə bir tərəfdən faiz dərəcəsindən, digər tərəfdən isə onun səmərəliliyindən asılıdır. İnvestisiya qoyuluşundan gözlənilən mənfəət norması faiz dərəcəsindən yüksək olduqda investisiya qoyuluşları həyata keçirilir. Yüksək faiz dərəcəsi firmaların investisiya qoyuluşuna maraqlarını azaldır, əksinə olduqda isə investisiya qoyuluşlarının həcmi artır.

İkinci amil məcmu buraxılışın həcminin artması ilə əlaqədardır. Ölkədə müəssisələrin istehsal gücündən tam istifadə olunmadığı şəraitdə investisiya fəallığı aşağı olur. Çünki, investisiya qoyuluşu əsasən əlavə istehsal güclərinin yaradılmasına gətirib çıxarır. Ölkədə sərbəst istehsal gücləri mövcuddursa, investisiya qoyuluşu üçün tələb yaranmır, əks halda isə, yaranmış tələbi mövcud istehsal gücləri ödəyə bilmirsə, onda investisiya qoyuluşları həyata keçirilir.

Üçüncü amil sahibkarların ölkə iqtisadiyyatının vəziyyəti ilə bağlı gözləntiləri ilə əlaqədardır. Ölkədəki iqtisadi konyukturaya, iqtisadi inkişafın templərinə dair qiymətləndirmələrin nəticələri investisiya qərarlarına əhəmiyyətli

dərəcədə təsir göstərir.

İnvestisiya fəallığına qənaətin investisiyaya çevrilməsi mexanizminin təkmilliyi də təsir göstərir. Ölkədə maliyyə bazarlarının zəif inkişafı çox vaxt sərbəst maliyyə vəsaitlərinin səmərəli şəkildə səfərbər edilməsi və istifadəsi imkanlarını məhdudlaşdırır. Belə hal faiz dərəcəsinin yüksək olmasına və resursların səmərəli bölüşdürülməməsinə gətirib çıxarır.

**2. İnvestisiya fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinin əsasları və dövlət investisiya fəaliyyətinin səmərəliliyinin qiymətləndirilməsi xüsusiyyətləri.**

İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsinə dövlət investisiyalarının idarə olunması, investisiya fəaliyyəti şərtlərinin tənzimlənməsi və bu şərtlərə investisiya fəaliyyətinin bütün subyektləri tərəfindən əməl edilməsinə nəzarət daxildir. Dövlət investisiya fəaliyyətini tənzimləməklə iqtisadiyyatın sahə və ərazi strukturunu təkmilləşdirməyə, onun texniki-iqtisadi səviyyəsini yüksəltməyə nail ola bilər.

Dövlət investisiya prosesinə birbaşa və dolayı yolla təsir göstərir. Bilavasitə təsir dövlət büdcəsindən investisiya layihələrinin maliyyələşdirilməsi və onlar üçün güzəştli kreditlərin verilməsi ilə əlaqədardır. Dolayı yolla təsir isə investisiya fəallığının yüksəldilməsi amillərinə təsir etməklə nail olunur. Belə ki, özəl bölmənin investisiya qoyuluşları əsasən mənfəət norması nisbətən yüksək olan sahələrə yönəlir. Bu baxımdan, dövlət ayrı-ayrı prioritet sahələrdə gəlirlik səviyyəsini artırmaqla özəl bölmənin investisiya fəaliyyətini bu sahələrə istiqamətləndirə bilir. Təsərrüfat subyektlərində rentabelliyin aşağı düşməsi nəinki onların xüsusi maliyyə vəsaitlərinin azalmasına gətirib çıxarır, həm də rentabellik norması ilə kreditlərin faiz dərəcəsi arasında nisbəti pisləşdirərək təsərrüfat subyektlərinin borc vəsaitlərini cəlb etmək imkanlarını azaldır.

Ölkədə investisiya fəaliyyətinin tənzimləmə mexanizmi dövlət investisiya siyasətinin həyata keçirilməsinə xidmət edir. Dövlətin investisiya siyasəti dedikdə, ölkədə iqtisadi inkişafın təmin edilməsi, istehsalın səmərəliliyinin yüksəldilməsi və sosial problemlərin həll edilməsi məqsədilə investisiya fəallığını stimullaşdıran və investisiya mühitini yaxşılaşdıran məqsədəuyğun tədbirlər kompleksi başa düşülür.

Dissertasiyada göstərilir ki, investisiya siyasətinin səmərəliliyi qarşıya qoyulmuş məqsədlərə nail olunma səviyyəsi ilə müəyyən olunur. Bu baxımdan, investisiya siyasətinin həyata keçirilməsi nəticəsində aşağıdakı vəzifələrin həllinə nail olunduqda o, səmərəli hesab edilir:

- iqtisadi inkişafın prioritet istiqamətlərində investisiya qoyuluşlarının təmərküzləşməsinə nail olunduqda;
- iqtisadi artımın yüksək templərinə nail olunduqda;
- iqtisadı artımın balanslaşdırılmasını təmin etdikdə;

- iqtisadi səmərəliliyin yüksəldilməsini təmin etdikdə.

Dövlətin investisiya siyasətinin mühüm istiqamətlərindən biri ölkədə investisiya mühitinin təkmilləşdirilməsi ilə əlaqədardır. İnvestisiya mühiti firmaların investisiya qoyuluşları əsasında öz fəaliyyət miqyaslarını genişləndirmək, yeni iş yerlərini yaratmaq və qlobal rəqabətə davam gətirmək imkanlarını və stimullarını müəyyən edir. İnvestisiya mühitinin əlverişlilik səviyyəsinin göstəricisi investisiya riskini əmələ gətirir. Ölkədə investisiya riskinin səviyyəsi yüksəkdirsə, onda investisiya fəallığı da aşağı olur. Dövlət ölkədə biznesin tənzimlənməsini həyata keçirməklə, infrastruktur sahələrin inkişafına investisiya qoyaraq bu sahələri inkişaf etdirməklə investisiya mühitinin əlverişlilik səviyyəsini əhəmiyyətli dərəcədə artıra bilir.

Dövlət ölkənin sosial-iqtisadi inkişaf proqramını hazırlamaqla inkişafın prioritet istiqamətlərini müəyyən edir. Bu prioritetlər iqtisadiyyatın ümumi səmərəliliyini yüksəldilməsinə ən çox təsir göstərən istiqamətlərin aşkar edilməsi və struktur disproporsiyaların aradan qaldırılması əsasında müəyyən olunur. Sosial-iqtisadi inkişaf proqramında dövlət və özəl bölmə tərəfindən maliyyələşdirilən investisiya layihələri, ilk növbədə, bu layihələrin ölkənin sosial-iqtisadi inkişaf baxımından səmərəliliyinin ilkin qiymətləndirilməsi əsasında daxil edilir. İnvestisiya layihələrinin qiymətləndirilməsinin məqsədi nəzərdə tutulmuş nəticənin əldə olunması üçün ən az resurs tələb edən və ya sərf edilən resurslara görə ən yüksək nəticənin əldə edilməsinə imkan verən variantın seçilməsidir.

Dövlət investisiya qoyuluşları iqtisadi siyasətin həyata keçirilməsi vasitələrindən biridir. Bu investisiya qoyuluşları müəyyən layihələr şəklində həyata keçirilir ki, bunlar da iqtisadi inkişaf siyasətinə müvafiq olur və bu siyasətin icrası üçün tərtib olunan sosial-iqtisadi inkişaf proqramlarının tərkib hissəsi kimi çıxış edir. İnvestisiya layihəsi sosial-iqtisadi inkişaf strategiyasının və ayrı-ayrı proqramların müstəqil şəkildə planlaşdırılan və yerinə yetirilə ilkin həlqəsidir.

İnvestisiya qoyuluşlarının reallaşdırılmasının sosial-iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi zamanı investisiya layihəsinin həyata keçirilməsi halı ilə layihənin həyata keçirilməməsi halı müqayisə edilir. Layihənin həyata keçirildiyi vəziyyətlə həyata keçirilmədiyi vəziyyətin müqayisə edilməsi istənilən layihənin xalis gəlirlərinin hesablanmasında əsas rol oynayır.

Dövlət investisiya qoyuluşlarının səmərəliliyinin qiymətləndirilməsi maliyyə və iqtisadi təhlillər əsasında həyata keçirilir. Maliyyə təhlili əsasən faktiki qiymətlər əsasında investisiya layihəsinin səmərəliliyinin müəyyən edilməsinə əsaslanır. İqtisadi təhlil isə iqtisadi qiymətlər əsasında layihənin cəmiyyətə verdiyi faydanı qiymətləndirməyə imkan verir. İqtisadi qiymətlərlə faktiki (maliyyə) qiymətlər arasında fərqlərin yaranmasına ölkədə makro-iqtisadi parametrlərin (valyuta məzənnəsi, faiz dərəcələri və əmək haqqının) tənzimlənməsi, gömrük siyasəti, dövlət tərəfindən xüsusi maliyyə güzəştlərinin verilməsi, bazarda

inhisarçılıq və s. səbəb olur. Belə bazar təhriflərinin aradan qaldırılması hesabına təhlillərin aparılması layihənin həm davamlılığını, həm də cəmiyyətə faktiki olaraq hansı qiymətə başa gəldiyini müəyyən etməyə imkan verir. İqtisadi təhlilin aparılmasında məqsəd məhdud resursların daha səmərəli bölüşdürülməsinə və investisiya və ya istehlak ilə bağlı gəlirlərin maksimum artımına imkan verən layihələrin seçilməsinə nail olmaqdır. İnvestisiya qoyuluşu haqqında qərarın qəbulu üçün layihənin maliyyə cəhətdən etibarlı və iqtisadi cəhətdən səmərəli olması zəruri şərtdir.

Dövlət investisiya qoyuluşlarının həm iqtisadi, həm də maliyyə səmərəliliyinin qiymətləndirilməsində xalis cari dəyər göstəricisinə üstünlük verilir. Xalis cari dəyər göstəricisi xərc axınlarının cari dəyəri ilə gəlir axınlarının cari dəyərinin müqayisəsi əsasında hesablanılır. Bu göstərici həm iqtisadi qiymətlər əsasında hesablanmaqla iqtisadi təhlil zamanı, həm də maliyyə qiymətləri əsasında hesablanmaqla maliyyə təhlilində istifadə edilir. Layihə çərçivəsində gəlir və xərclərin cari dəyərləri onların diskontlaşdırılması vasitəsilə müəyyən edilir. Bunun üçün isə layihənin həyata keçirildiyi sahədə normal mənfəət normasını (diskont dərəcəsini) müəyyən etmək vacibdir. Çünki diskont dərcəsində kiçik dəyişiklik təhlilin nəticəsinə və layihənin seçilməsi ilə bağlı yekun qərarın qəbul edilməsinə ciddi şəkildə təsir göstərir. Diskont dərəcəsi layihəyə çərçivəsində həyata keçirilən investisiya qoyuluşunun alternativ dəyərini ifadə edir. Alternativ dəyər isə iqtisadi resursların ən yaxşı istifadəsi halında əldə edilən gəlirə bərabərdir. Qeyd etmək lazımdır ki, dövlət investisiya qoyuluşlarının həyata keçirilməsi zamanı düzgün diskont dərəcəsinin nəzərə alınması alternativ layihələrdən ən səmərlisinin seçilməsi üçün vacibdir.

Dövlət investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsində mühüm məsələlərdən biri bu layihələrin reallaşdırılması nəticəsində cəmiyyətdə ayrı-ayrı qrupların əldə etdiyi xalis gəlir və zərərləri müəyyən etməkdir. Dövlət investisiya layihələrinin reallaşdırılması nəticəsində əldə olunan faydaların dövlət, istehlakçılar, təchizatçılar və s. qruplar arasında bölüşdürülməsinin müəyyən olunması investisiya qoyuluşu nəticəsində qarşıya qoyulmuş məqsədələrə nail olunma səviyyəsini qiymətləndirməyə imkan verir.

Dövlət investisiya layihələrinin qiymətləndirilməsində mühüm məsələlərdən biri həssaslığın və risklərin qiymətləndirilməsi ilə əlaqədardır. İnvestisiya layihəsinin həssaslığı ayrı-ayrı parametrlərin (məsələn, obyektin tikintisi və istismarı ilə bağlı xərclərin artması, istehsal ediləcə və ya göstəriləcək xidmətlərin qiymətələrinin dəyişməsi və s.) investisiyanın maliyyə və iqtisadi səmərəliliynə təsir səviyyəsi ilə əlaqədardır. İnvestisiya layihələrinin qiymətləndirilməsi zamanı həssaslıq göstəricisi hesablanır ki, bu da xalis cari dəyərdə baş verən dəyişikliyin faizlə ifadə olunan kəmiyyətinin seçilmiş parametrin dəyərindəki dəyişmənin faizlə ifadə olunan kəmiyyətinə nisbəti kimi müəyyən olunur. Göstəricinin yuxarı

olması layihənin həmin parametrə qarşı həssas olduğunu göstərir.

**3. Ölkədə investisiya fəallığının mövcud vəziyyətinin qiymətləndirilməsi.**

Azərbaycan iqtisadiyyatının bazar münasibətlərinə keçidinin ilk dövrlərində iqtisadi fəallığın aşağı düşməsi ilə yanaşı ölkədə investisiya qoyuluşlarının həcmi də kəskin şəkildə azalmışdır. Belə ki, 1993-cü ildə həyata keçirilmiş kapital qoyuluşlarının həcmi 1990-cı il səviyyəsinin 28,8 faizini təşkil etmişdir. Keçid dövrünün ilk dövrlərində belə azalma əsasən iki qrup amillərin təsiri ilə baş vermişdir. Birinci qrup amillər, ölkədə istehsalın texniki-iqtisadi səviyyəsinin aşağı olması və onun dünya iqtisadiyyatına inteqrasiya imkanlarının məhdudluğu, ikinci qrup amillər isə ölkədə həyata keçirilən islahatların gedişi ilə əlaqədar olmuşdur. 1990-1996-cı illərdə qiymətlərin liberallaşması nəticəsində daxili tələbin azalması, xarici rəqabətin güclənməsi hesabına ölkənin ixrac imkanlarının məhdudlaşması, istehsalçıların yeni qiymət proporsiyalarına və bazar münasibətlərinin tələblərinə uyğunlaşmasında yaranan problemlərlə əlaqədar ümumi daxili məhsulun həcmi təqribən 2,4 dəfə azalmışdır. Belə şəraitdə investisiya qoyuluşlarının maliyyələşdirilməsinin daxili mənbələri kəskin şəkildə məhdudlaşmışdır. Nəticədə, 1996-cı ildə daxili mənbələr hesabına investisiya qoyuluşları 1990-cı ilə nisbətən 2,6 dəfə azalmışdır. Belə şəraitdə ölkə iqtisadiyyatına xarici investisiyanın cəlb olunmasının əhəmiyyəti artmışdır. Bu baxımdan, 20 sentyabr 1994-ci ildə dünyanın aparıcı neft şirkətləri ilə Xəzər dənizində yerləşən Azəri, Çıraq neft yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin işlənməsinə dair bağlanmış «Əsrin müqaviləsi» ölkə iqtisadiyyatına xarici investisiyanın cəlb olunmasında mühüm addım olmuşdur. Bu müqavilənin bağlanmasından sonrakı dövrlərdə xarici neft şirkətləri ilə əlavə olaraq 27 kontrakt imzalanmışdır. Neft kontraktlarının bağlanması ölkə iqtisadiyyatına böyük həcmli investisiya qoyuluşlarının cəlb olunmasına gətirib çıxarmışdır. Belə ki, 2006-cı ildə əsas kapitala investisiyanın həcmi 1990-cı ilə nisbətən 11,5 dəfə, 1992-ci ilə nisbətən isə 24 dəfə artmışdır. Bu artım əsasən xarici investisiyanın cəlb olunması hesabına baş vermişdir. 1995-2006-cı illər ərzində bütün mənbələr üzrə iqtisadiyyata qoyulmuş investisiya qoyuluşları 544 mln. ABŞ dollarından 8300,4 mln. ABŞ dollarına qədər artmışdır ki, bunun da 1995-ci ildə 68,9 faizi, 2006-cı ildə isə 60,9 faizi xarici investisiya hesabına həyata keçirilmişdir. Qeyd etmək lazımdır ki, ölkədə daxili investisiyalar da qeyd edilən dövrdə 168,9 mln. dollardan 2104,9 mln. dollara qədər artmışdır ki, bu artımın maliyyələşdirilməsi üçün zəruri olan gəlirlərin formalaşmasında xarici investisiyalar mühüm rol oynamışdır.

Cədvəl 1

Əsas kapitala yönəldilmiş investisiyalardan maliyyə mənbələri üzrə istifadə edilməsi

(yekuna görə faizlə)

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Müəssisə və təşkilatların öz vəsaitləri | 77,5 | 81,5 | 82,9 | 82,2 | 85,6 | 82,6 | 70,7 |
| Əhalinin xüsusi vəsaitləri | 7,0 | 6,0 | 4,1 | 3,0 | 4,4 | 5,8 | 3,8 |
| Bank kreditləri | 8,4 | 8,2 | 7,8 | 5,0 | 5,5 | 6,4 | 6,8 |
| Büdcə vəsaitləri | 2,3 | 2,0 | 2,2 | 2,9 | 2,4 | 3,4 | 14,2 |
| Büdcədənkənar fondların vəsaitləri | 3,0 | 0,5 | 2,1 | 0,7 | 0,3 | 1,3 | 4,1 |
| Sair vəsaitlər | 1,7 | 1,8 | 0,8 | 6,1 | 1,9 | 0,6 | 0,3 |

Əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarının maliyyələşdirilməsində müəssisə və təşkilatların öz vəsaitlərinin payı 2000-ci ildə 77,5 faizdən, 2005-cü ildə 85,6 faizə qədər artmışdır. 2006-cı ildə əsas kapitala yönəldilmiş investisiya qoyuluşlarının maliyyələşdirilməsində müəssisə və təşkilatların öz vəsaitlərinin payı 70,7 faizə bərabər olmuşdur. Belə hal son illərdə neft gəlirlərinin artması hesabına dövlət büdcəsindən investisiya qoyuluşlarının maliyyələşməsinin həcminin çoxalması ilə əlaqədardır.

2000-2006-cı illərdə əsas kapitala investisiya qoyuluşlarının maliyyələşdirilməsinə yönəldilmiş əhalinin xüsusi vəsaitlərinin həcmi təqribən 3,5 dəfə artmasına baxmayaraq, onların ümumi investisiya qoyuluşlarında payı 7 faizdən 3,8 faizə qədər azalmışdır.

Bununla belə, investisiyanın maliyyələşdirilməsində əhalinin xüsusi vəsaitlərinin payı əhalinin investisiya prosesində iştirakı haqqında tam informasiya vermir. Belə ki, əhalinin vəsaitlərini maliyyə bazarından və birbaşa (məsələn, səhm buraxmaqla) və dolayı (məsələn, banklar vasitəsilə) yolla investisiyanın maliyyələşdirilməsinə cəlb edilə bilər.

Əsas kapitala investisiya qoyuluşlarının maliyyələşdirilməsinin əsas mənbələrindən biri bank kreditləridir. Xarici ölkələrin təcrübəsi göstərir ki, iqtisadiyyatın maliyyələşdirilməsində banklar mühüm rol oynayır. 2000-2006-cı illərdə əsas kapitala investisiya qoyuluşarının maliyyələşdirilməsinə yönəldilmiş kreditin həcmi təqribən 5,2 dəfə artsa da, investisiya qoyuluşlarının ümumi həcmində payı 8,4 faizdən 6,8 faizə qədər azalmışdır. Buna da ölkədə neft kontraktlarının və Bakı-Ceyhan boru xəttinin çəkilməsi ilə əlaqədar xarici investisiya qoyuluşlarının həcminin və büdcə və büdcədən kənar fondlar

tərəfindən maliyyələşmənin artması səbəb olmuşdur.

Ölkədə investisiya qoyuluşlarının maliyyələşdirilməsində dövlət büdcəsi və büdcədənkənar fondlar əhəmiyyətli rol oynayırlar. Belə ki, büdcə vəsaitləri hesabına əsas kapitala investisiya qoyuluşları 2006-cı ildə 2000-ci ilə nisbətən təqribən 38,9 dəfə artmışdır. Bu da son illərdə ölkədə iqtisadi inkişfın sürətlənməsi nəticəsində dövlət büdcəsinin gəlirlərinin artması ilə əlaqədardır.

Qeyd edilən dövrdə büdcə gəlirləri və xərcləri təqribən 5,4 dəfədən çox artmışdır. Hazırda ölkədə dövlət büdcəsinin investisiyanın maliyyələşdirilməsində rolu artmaqdadır. Belə ki, 2005-ci ilə nisbətən 2006-cı ildə dövlət büdcəsindən investisiya qoyuluşlarının maliyyələşdirilməsinə yönəldilən vəsaitlərin həcmi 5,7 dəfə çox, 2007-ci ildə isə təribən 10 dəfə çox olmuşdur.

Cədvəl 2

Əsas kapitala yönəldilmiş investisiya qouluşlarının milli iqtisadi fəaliyyət növlərinə görə strukturu

(yekuna görə faizlə)

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | 100 | 100 | 100 | 100 | 100 | 100 | 100 |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 0,7 | 0,7 | 0,8 | 0,9 | 0,7 | 0,7 | 0,9 |
| Sənaye | 68,1 | 70,5 | 77,3 | 79,5 | 79,5 | 72,3 | 68,9 |
| Tikinti | 0,4 | 1,1 | 1,9 | 0,3 | 0,4 | 0,8 | 0,2 |
| Topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 3,3 | 4,4 | 2,5 | 0,8 | 1,1 | 1,4 | 1,6 |
| Mehmanxana və restoranlarla xidmətlərin göstərilməsi | 0,4 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,0 | 0,2 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 9,2 | 11,2 | 6,6 | 10,5 | 8,7 | 11,6 | 13,5 |
| Maliyyə fəaliyyəti | 0,0 | 0,0 | 0,0 | 0,1 | 0,0 | 0,0 | 0,0 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmətlərin göstərilməsi | 11,8 | 9,4 | 9,0 | 6,0 | 1,4 | 10,3 | 8,3 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminatın vəzifələri | 0,7 | 0,8 | 0,6 | 0,7 | 0,8 | 1,1 | 2,1 |
| Təhsil | 0,4 | 0,6 | 0,4 | 0,3 | 0,5 | 0,7 | 1,7 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 3,0 | 0,8 | 0,2 | 0,1 | 0,2 | 0,3 | 1,3 |
| Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi | 2,0 | 0,5 | 0,6 | 0,7 | 0,5 | 0,8 | 1,4 |

Son illərdə ölkədə investisiya qoyuluşlarının strukturunda sənayenin payı kəskin şəkildə artmışdır. Belə ki, əsas kapitala investisiya qoyuluşlarının ümumi həcmində sənayenin payı 1990-cı ildə 37,4 faizdən, 1995-ci ildə isə 46,4 faizdən 2000-ci ildə 68,2 faizə, 2005-ci ildə 72,3 faizəqədər artmış, 2006-cı ildə isə 68,9 faizə bərabər olmuşdur. Bu artım əsasən xam neft və təbii qaz hasilatı sahəsi ilə əlaqədar olmuşdur. Belə ki, 2000-ci ildə əsas kapitala investisiya qoyuluşlarının 49,7 faizi, sənayeyə investisiya qoyuluşlarının 72,9 faizi, 2005-ci ildə isə müvafiq olaraq 64,7 faizi və 89,4 faizi, 2006-cı ildə isə müvafiq olaraq 54,3 faizi və 78,8 faizi bu sahənin payına düşmüşdür. 1995-2005-ci illərdə ölkə iqtisadiyyatına yönəldilmiş cəmi investisiya qoyuluşlarının 76 faizi neft sənayesinin payına düşmüşdür. Bu da ölkə iqtisadiyyatında bu sahənin payının artmasına gətirib çıxarmışdır.

1990-2006-cı illərdə ölkə iqtisadiyyatının aparıcı sahələrindən olan kənd təsərrüfatının investisiya qoyuluşlarının ümumi həcmində payı 14,0 faizdən 0,9 faizə qədər azalmışdır. Bu azalma mütləq ifadədə də baş vermişdir. Belə ki, qeyd edilən dövrdə kənd təsərrüfatına investisiya qoyuluşlarının həcmi təqribən 2 dəfə azalmışdır. Bütövlükdə, təhlil göstərir ki, 1995-2003-cü illərdə kənd təsərrüfatına investisiyanın cəmi həcmi təribən 1990-cı ildə həyata keçirilmiş investisiya qoyuluşlarına bərabər olmuşdur.

Son illərdə ölkədə infrastruktur sahələrin inkişafına diqqət artmışdır. Belə ki, 2006-cı ildə nəqliyyat, anbar təsərrüfatına və rabitəyə investisiya qoyuluşu 2000-ci ilən nisbətən 9,4 dəfə artmışdır. Bu sahələrin ümumi investisiya qoyuluşlarında payı 2000-ci ildə 9,2 faizə, 2005-ci ildə isə 11,6 faizə, 2006-cı ildə 13,5 faizə bərabər olmuşdur. Qeyd etmək lazımdır ki, 2006-cı ildə nəqliyyata qoyulan investisiya qoyuluşlarının təqribən 90 faizi boru nəqliyyatının inkişafına sərf olunmuşdur.

Son illərdə ölkədə həyata keçirilən investisiya qoyuluşlarının strukturunda böyük paya malik olan sahələrdən biri də mənzil tikintisi olmuşdur. 2000-ci ildə ölkədə həyata keçirilmiş investisiya qoyuluşlarının 11,3 faizi, 2005-ci ildə 9,3 faizi, 2006-cı ildə isə 5,0 faizi mənzil tikintisi sahəsinə yönəldilmişdir. Təhlil göstərir ki, 2000-2006-cı illərdə mənzil tikintisinə investisiya qoyuluşları təqribən 4,1 dəfə artmışdır.

### 4. İnvestisiya fəaliyyətinin dövlət tənzimlənməsi mexanizminin səmərəliliyinin qiymətləndirilməsi

Ölkədə dövlətin investisiya siyasəti təkcə dövlətin investisiya fəaliyyətini deyil, bütövlükdə investisiya fəaliyyətinin məqsədyönlü tənzimlənməsini əhatə edir. Bu isə sosial-iqtisadi inkişaf qarşısında duran vəzifələrin reallaşdırılması və ölkənin iqtisadi potensialından səmərəli istifadə etmək məqsədilə mövcud imkanların hərəkətə gətirilməsi ilə əlaqədardır. Bu baxımdan, investisiya siyasəti investisiya qoyuluşlarının maliyyə mənbələrinin genişləndirilməsi, mövcud

mənbələrin investisiyaya çevrilməsi üçün səmərəli mexanizmlərin formalaşdırılması, mövcud müəssisələrin səmərəliliyinin yüksəldilməsi vasitəsilə onların investisiyanı mənimsəmək imkanlarının artırılması, investisiya qoyuluşlarının səmərəliliyinin yüksəldilməsi və investisiya fəallığının səmərəli tənzimlənməsi məqsədilə mövcud tənzimlənmə vasitələrindən rasional istifadə olunmasını əhatə etməlidir.

Hökumətin məqsədi ölkənin malik olduğu məhdud və potensial ehtiyatlardan səmərəli şəkildə istifadə olunmasını, yəni, məhdud resurslardan istifadə etməklə əhalinin tələbatının maksimum ödənilməsini təmin etməkdən ibarətdir. Bu baxımdan, investisiya qoyuluşlarının həcminin və strukuturunun iqtisadi inkişafa və əhalinin sosial vəziyyətinə böyük təsir göstərdiyinə görə, bu sahədə səmərəli dövlət siyasətinin formalaşdırılması vacibdir.

Azərbaycanın investisiya qoyuluşlarının maliyyələşdirilməsinin daxili mənbələrinin məhdud olduğu şəraitdə investisiya siyasətinin əsas istiqaməti xarici investisiya vəsaitlərinin cəlb edilməsi olmuşdur. Belə ki, 1997-ci il yanvar ayının 1-nə qədər nizamnamə kapitalında xarici investlorların payı 30 faizdən çox olan müəssisələr 2 illik mənfəət vergisindən azad edilirdi. Xarici investisiyanın cəlb olunması əsasən hasilat sahələrinin və xidmət sahələrinin inkişafına səbəb olmuşdur. Bu sahələrin inkişafı investisiya qoyuluşlarının maliyyələşdirilməsi üçün zəruri vəsaitlərin formalaşmasına gətirib çıxarmışdır. Belə şəraitdə dövlətin qeyri-neft sektorunun inkişafını səmərəli şəkildə tənzimləmək imkanları artır.

Bütövlükdə, hazırda ölkədə dövlət, investisiya qoyuluşlarının həcminə, tərkibinə və strukturuna təsir göstərmək və bununla da, davamlı iqtisadi inkişafı təmin etmək imkanlarına malikdir. Belə ki, 2000-2006-ci illər ərzində dövlət büdcəsinin gəlirlərinin həcmi 5,4 dəfə, ümumi daxili məhsulda payı isə 15,1 faizdən 21,4 faizə qədər artmışdır.

Bununla belə, hazırda qeyri-neft sektorunun inkişafına mane olan amillərdən biri bu sahənin istehsal-texniki səviyyəsinin aşağı olması ilə əlaqədardır. Emal sənayesinin əksər müəssisələrində istehsal texnikası və texnologiyası köhnəlmişdir. Belə şəraitdə ayrı-ayrı istehsal sahələrinin inkişaf etdirilməsi uzunmüddətli tədbirlərin və iri həcmli investisiya qoyuluşlarının həyata keçirilməsi hesabına mümkündür ki, bu da uzunmüddətli inkişaf siyasətinin işlənib hazırlanmasını tələb edir.

Ölkədə investisiya qoyuluşlarının həcmində neft sektoru və Bakı şəhərinin payı yüksəkdir. Belə şəraitdə qeyri-neft sektorunun, xüsusilə, emal sənayesinin və kənd təsərrüfatının inkişaf etdiridməsi mühüm əhəmiyyət kəsb etməyə başlamışdır.

2006-cı ildə ölkə əhalisinin 22,2 faizi Bakı şəhərində yaşadığı halda, muzdla işləyənlərin 42,9 faizi, ümumi məhsul buraxılışının 79,4 faizi, pərakəndə əmtəə dövriyyəsinin isə 50,4 faizi bu şəhərin payına düşmüşdür. Belə şəraitdə

ölkədə iqtisadiyyatın məhsuldar qüvvələrdən səmərəli istifadə etmək və iqtisadi potensialın təsərrüfat dövriyyəsinə cəlb etmək məqsədilə iqtisadi siyasətin mühüm istiqamətlərindən biri iqtisadiyyatın ərazi strukturunu optimallaşdırılmasıdır. Hazırda Azərbaycan hökuməti ölkədə iqtisadi islahatların davam etdirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, neft sektoru ilə bərabər, qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı tədbirlər həyata keçirir. Qeyri-neft sektorunun inkişafı prioritet istiqamətlərdən biri kimi, 2002-2005-ci illlər ərzində həyata keçirilmiş dövlət proqramlarında, o cümlədən "2003-2005-ci illər üzrə yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nda, 2002-2005-ci illlər üzrə "Kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi üzrə Dövlət Proqramı"nda, habelə hazırda həyata keçirilən "2004-2008-ci illər üçün Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişaf Dövlət Proqramı"nda öz əksini tapmışdır. Azərbaycan Respublikası Prezidentinin 11 fevral 2004-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikası regionlarının sosiali-iqtisadi inkişafı Dövlət Proqramı"nda 2004-2008-ci illərdə ayrı-ayrı rayonlarda iqtisadiyyatın inkişafını sürətləndirən amillər, bununla bağlı dövlət siyasətinin və dövlət dəstəyinin əsas istiqamətləri müəyyən edilmişdir. Bu vəzifələrin yerinə yetirilməsi üçün dövlət tərəfindən məqsədyönümlü tədbirlər həyata keçirilməkdədir.

Kənd təsərrüfatı məhsullarının istehsalını artırmaq və bu sahədə sahibkarlığın inkişafını sürətləndirmək məqsədi ilə kənd təsərrüfatı məhsullarının istehsalçıları 2009-cu il yanvarın 1-dək torpaq vergisindən başqa, bütün vergilərdən azad edilmişlər. Eyni zamanda, kənd təsərrüfatının inkişafının stimullaşdırmaq məqsədilə ölkə prezidentinin 18 iyun 2002-ci il «Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında» Azərbaycan Respublikasının qanuna əsasən kənd təsərrüfatında sığorta haqlarının bir hissəsi dövlət büdcəsindən ödənilməsi nəzərdə tutulmuşdur.

Müasir dövrdə Azərbaycan Respublikasında dövlət investisiya qoyuluşlarının planlaşdırılması və onun səmərəliliyinin təmin edilməsi mexanizmi təkmil deyildir. Belə şəraitdə məhdud iqtisadi resurslardan səmərəli istifadə etmək məqsədilə sahələrarası prioritetlərin müəyyən edilməsi və ayrı-ayrı sahələrdə həyata keçirilən investisiya qoyuluşlarının bir-biri ilə əlaqələndirilməsi vacibdir. Ölkədə səmərəli investisiya siyasətinin formalaşdırılması üçün uzun və orta müddətli inkişafı məqsədləri və strategiyalarının müəyyən edilməsi və orta müddətli hədəflərin və onlara nail olmaq üçün lazımi siyasət və layihələrin işlənib hazırlanması vacibdir. Bu isə ölkə iqtisadiyyatının kəmiyyət və keyfiyyət parametrlərini əks etdirən çoxlu sayda məlumatların toplanmasını, iqtisadi inkişafın potensial imkanlarının qiymətləndirilməsini tələb edir.

**5. Ölkədə investisiya qoyuluşlarının prioritet istiqamətləri.**

İstənilən ölkədə iqtisadi resursların məhdudluğu iqtisadi inkişafın əhəmiyyətli və səmərəli istiqamətləri içərisindən məhdud sayda prioritet

istiqamətlərin seçilməsini zəruri edir. Ölkənin iqtisadi inkişafının prioritet istiqamətlərinin müəyyən olunması haqqında qərarlar kompleks təhlil və ciddi qiymətləndirmələr əsasında qəbul edilir. Çünki, ayrı-ayrı dövrlərdə iqtisadi inkişafın prioritet istiqamətləri bir-birindən fərqlənir. Ölkə iqtisadiyyatında investisiya qoyuluşlarının prioritet istiqamətlərinin sosial-iqtisadi inkişafın və ayrı-ayrı sahələrin inkişaf məqsədlərinə uyğunluğu, xüsusilə də yoxsulluğun və regional bərabərsizliyin azaldılmasına təsiri baxımından müəyyən edilməlidir. Lakin hazırda ölkədə investisiya siyasətinin həyata keçirilməsi üçün investisiya qoyuluşlarının prioritet istiqamətlərinin müəyyən edilməsinin xüsusi metodikası hazırlanmamışdır. Belə metodikanın hazırlanması irnvestisiya siyasətinin əsaslandırılması və dövlətin investisiya qoyuluşlarında iştirakı ilə əlaqədar qəraların qəbul edilməsini asanlaşdırar.

Son illərdə ölkədə neft strategiyasının uğurla reallaşdırılması nəticəsində iqtisadiyyatın maliyyələşdirilməsi üçün zəruri vəsaitlərin formalaşdığı şəraitdə qeyri-neft sektorunun inkişaf etdirilməsi və iqtisadiyyatın diversifikasiyasına nail olmaq iqtisadi inkişafın prioritet istiqamətinə çevrilmişdir.

İstənilən ölkənin iqtisadi inkişafında sənaye əhəmiyyətli yer tutur. Təhlil göstərir ki, 1990-2006-cı illər ərzində xarici təhcizat mənbələrinə əsaslanan və satış bazarları isə əsasən xarici bazarlar olan, nisbətən mürəkkəb məhsullar istehsalı ilə məşğul olan bir sıra sənaye müəssisələri rəqabət üstünlüklərini itirmişdir. Buna görə də, sənayenin inkişafında ilk növbədə, yerli xammal və materiallardan istifadəyə imkan verən istehsal növlərinə üstünlük verilməlidir. Bu baxımdan, ölkədə neft emalı, neft-kimya, tikinti materialları, yeyinti və yüngül sənayesi sahələri, aliminium məmulatlarının istehsalı kimi sahələrin inkişaf etdirilməsi imkanları böyükdür.

Ölkədə sənaye sahəsində iqtisadi siyasətin əsas məqsədlərdən biri kimi, regionlardakı sənaye müəssisələrinin fəaliyyətinin bərpası, yeni müəssisələrin yaradılması qəbul edilmişdir. Burada kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin bərpasına və bu istehsalla bağlılığı olan fermerlərin yetişdirdikləri məhsulların satış imkanlarının artırılmasına xüsusi diqqət yetirilməsi nəzərdə tutulmuşdur. Bu baxımdan, ölkədə yüngül və yeyinti sənayesinin inkişaf etdirilməsinin mühüm əhəmiyyəti vardır.

Müasir dövrdə respublikada istehsala xidmət sahələrinin inkişafı qarşısında duran əsas məsələ maya dəyərinin aşağı salınması, xidmət çeşidlərinin artırılması və keyfiyyətin yüksəldilməsidir. Ölkədə infrastruktur sahələrin inkişafı sahəsində dövlət siyasətinin əsas istiqamətləri kimi aşağıdakılar qəbul edilmişdir:

- müasir tipli elektrik stansiyalarının, elektrik paylayıcı şəbəkələrin, qaz paylayıcı qurğuların, yolların, su kəmərlərinin və kanalizasiya sistemlərinin, suvarma kanallarının, istilik sisteminin, kommunikasiya xətlərinin və digər infrastruktur obyektlərinin inşası, yenidənqurulması və inkişafı;

- informasiya və telekommunikasiya infrastrukturunun inkişaf etdirilməsi, bu sahədə restrukturizasiya tədbirlərinin başa çatdırılması, informasiya və telekommunikasiya şəbəkələrinin texniki imkanlarının müntəzəm surətdə artırılması.

Hazırda təhsil və tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsinin və onları əldə etmək üçün bərabər imkanların yaradılmasının cəmiyyətin inkişafı baxımından mühüm əhəmiyyəti vardır. Qeyd etmək lazımdır ki, ölkədə neft və qaz gəlirlərindən istifadənin əsas istiqamətlərindən biri kimi, insan kapitalının inkişafı qəbul edilmişdir.

Əhalinin mənzil təminatının yaxşılaşdırılması, elektrik enerjisi, qaz, istilik, su, kanalizasiya, lift təsərrüfatlarının inkişaf etdirilməsi, məişət tullantılarının yığılması və zərərsizləşdirilməsi istiqamətində investisiya qoyuluşlarının həyata keçirilməsi zəruridir. Belə ki, elektrik enerjisinin istehsalının ilbəil artmasına baxmayaraq, hələ də istehlakçıların tələbatlarının tam şəkildə təmin edilməsinə nail olunmamışdır. Belə şəraitin yaranmasına səbəb olan amillərdən biri də istilik təminatının aşağı olması və enerji itkilərinin olması ilə əlaqədardır. Ölkədə istilik təsərrüfatının inkişaf etdirilməsi elektrik enerjisinə olan tələbatın da azalmasına gətirib çıxaracaqdır. Eyni zamada, ölkədə şəhərlərin əksəriyyətində kanalizasiya sistemi köhnəlmiş və müasir tələblərə cavab vermir. Su təsərrüfatının maddi-texniki bazası köhnəlmişdir. Bütövlükdə, hazırda ölkədə kommunal xidmətlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsinə böyük ehtiyac var.

**6. Dövlət investisiya fəaliyyətinin səmərəlililiyinin yüksəldilməsi və investisiya mühitinin yaxşılaşdırılması istiqamətləri**

Ölkədə səmərəli investisiya siyasətinin həyata keçirilməsi sosial-iqtisadi inkişafın davamlılığını təmin etmək, milli iqtisadiyyatın strukturunu təkmilləşdirmək və əhalinin həyat səviyyəsini yüksəltmək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu məqsədlərə nail olmaq üçün zəruri olan tədbirlərin vahid proqram əsasında həyata keçirilməsi tələb olunur. Ölkənin sosial-iqtisadi inkişaf proqramı dövlət büdcəsinin tərtibi prosesində hazırlanır. Belə ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası qanununa görə ölkənin ortamüddətli sosial-iqtisadi inkişaf proqramı hazırlanmalıdır (maddə 11.3). Lakin dörd illik sosial-iqtisadi inkişaf proqramının əsaslandırılmış tərtibi dövlət və özəl sektorda fəaliyyət göstərən subyektlərin gələcək dörd il ərzində fəaliyyət proqramları haqqında zəruri məlumatların olmasını tələb edir. Belə informasiyalar həm investisiyaların təşviqi məqsədilə güzəştlər sisteminin formalaşdırılması, həm də dövlət investisiya qoyuluşlarının istiqamətlərinin dəqiq müəyyən edilməsi üçün vacibdir. Araşdırmalar göstərir ki, hazırda ölkədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin əksəriyyəti dörd illik inkişaf proqramlarına malik deyillər və ortamüddətli dövr üçün öz fəaliyyətləri ilə əlaqədar əsaslandırılmış proqnozlar vermək iqtidarında deyillər. Bu da sahələrarası proporsiyaların planlaşdırılması işini çətinləşdirir və

iqtisadiyyatda disproporsiyaların yaranma ehtimalını, nəticə olaraq da investisiya qoyuluşlarının səmərəliliyinin aşağı olması ilə bağlı riskləri artırır. Bununla əlaqədar, ölkədə biznesin idarəedilməsi və təşkilinin səmərəliliyinin yüksəldilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsi vacibdir.

Hazırda investisiya siyasətinin formalaşdırılmasında dövlətin iştirakı ilə həyata keçirilən investisiya qoyuluşlarının həcm və strukturu əhəmiyyətli rol oynayır. Ortamüddətli perspektivdə qarşıda duran başlıca məqsəd yoxsulluğun azaldılmasından və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsindən ibarətdir. Bu baxımdan, 2008-2011-ci illəri əhatə edən Dövlət İnvestisiya Proqramına daxil edilən investisiya layihələri bu məqsədlərin əldə edilməsinə yönəldilmişdir.

2008-2011-ci illər ərzində dövlət investisiya proqramı üzrə 15,6 mlrd. manat investisiya qoyuluşunun həyata keçirilməsi nəzərdə tutulmuşdur ki, bu da 2004-2007-ci illərdə nəzərdə tutulduğundan təqribən 7,8 dəfə çoxdur. Qeyd edilən dövürdə Dəvlət Proqramı çərçivəsində investisiyanın 72,6 faizi Dövlət büdcəsi hesabına, 6,7 faizi Dövlət Neft Fondu hesabına, 20,7 faizi isə xarici mənbələr hesabına maliyyələşdiriləcəkdir. Dövlət Proqramı çərçiəsində həyata keçirilən investisiya qoyuluşlarının maliyyələşdirilməsində daxili vəsaitlərin payı 2004-2007-ci illərdəki səviyyədən 1,5 dəfə çoxdur. Fikrimizcə, dövlət investisiya qoyuluşlarının maliyyələşdirilməsində dövlət büdcəsinin və Dövlət Neft Fondunun cəmi payının yüksək olması investisiya layihələrinin maliyyələşdirilməsinə xarici kreditlərin cəlb edilməsində ciddi problemlər yaratmayacaqdır. Dövlət investisiya proqramını çərçivəsində 2008-2011-ci illərdə sənaye və energetika sahəsinə investisiya qoyuluşlarının 49,7 faizi, nəqliyyat sektorunun inkişafına investisiya qoyuluşlarının 32,3 faizi, institutsional layihələrin 74,3 faizi, ekologiyanın inkişafına investisiya qoyuluşlarının 70,6 faizi xarici mənbələr hesabına, digər sahələr üzər isə investisiya qoyuluşlarının böyük hissəsi daxili mənbələr hesabına maliyyələşdirilməsi planlaşdırılır. Dövlət investisiyalarının həyata keçirilməsində infrastruktur sahələrin inkişafına üstünlük verilir. Belə ki, 2008-2011-ci illərdə dövlət proqramı çərçivəsində həyata keçirilən cəmi investisiya qoyuluşlarının 65,7 faizi infrastrukturun (energetika və sənaye (burada əsasən energetikaya investisiya qoyuluşu nəzərdə tutulur), nəqliyyat, kommunal infrastruktur və su ehtiyatları və irriqasiya və s. sahələrin) inkişafına yönəldilməsi nəzərdə tutulur. İnfrastrukturun inkişaf etdirilməsi özəl sektorun inkişafına da əlverişli şəraitlə yaratmaqla məşğulluğun artmasına dolayı təsir göstərir. Qeyd edilən dövürdə dövlət proqramı çərçivəsində həyata keçirilən investisiya qoyuluşlarında sosial sferanın payı təqribən 21,3 faizə bərabərdir.

Fikrimizcə, dövlət investisiya siyasətinin ayrı-ayrı əmtəə və xidmətlər bazarına və iqtisadi regionlara təsirinin nəzərə alınması vacibdir. Hazırda dövlət investisiya proqramının iqtisadi inkişafa təsiri qiymətləndirilmir. İnvestisiya siyasətinin səmərəliliyinin yüksəldilməsi və investisiya layihələrinin optimal

dəstinin müəyyən edilməsi üçün ilk növbədə, proqramın səmərəliliyinin qiymətləndirilməsi metodikasının hazırlanması vacibdir. İnvestisiya layihələrinin qiymətləndirilməsində istifadə edilən xalis cari dəyər metodundan istifadə etməklə belə qiymətləndirmə aparmaq mümkündür.

İnvestisiya siyasətinin səmərəlilyinin yüksəldilməsi məqsədilə dövlətin iştirakı ilə həyata keçirilən investisiya qoyuluşları haqqında qərarların əsaslandırılması üçün diskont dərəcəsinin müəyyən edilməsi vacibdir. Çünki diskont dərəcəsinin müxtəlif qiymətlərində müqayisə edilən layihələrdən hansının seçilməsi haqqında qərar müxtəlif ola bilər. Hazırda Dünya Bankı və Asiya İnkişaf Bankı tərəfindən Azərbaycanda maliyyələşdirilən layihələr üçün istifadə edilən diskont dərəcəsi dövlət investisiya proqramına daxil edilən investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsi üçün əsas götürülmüşdür. Lakin qeyd etmək lazımdır ki, diskont dərəcəsi ölkədə faiz dərəcəsindən, inflyasiya səviyyəsindən və s. amillərdən asılıdır. Bu amillər isə dəyişir və nəticədə diskont dərəcəsi də dəyişməlidir. Buna görə də, diskont dərəcəsinin hesablanması metodikasının hazırlanması və layihələrin səmərəliliynin bu diskont dərəcələri əsasında həyata keçirilməsi zəruridir. Belə hesablamalar iqtisadi resursların bölgüsünün səmərəliliyini yüksəltməyə imkan verər.

Dövlətin investisiya siyasətinin reallaşıdırılmasında «Azərbaycan İnvestisiya Şirkəti» Açıq Səhmdar Cəmiyyəti mühüm rol oynaya bilər. Bu səhmdar cəmiyyəti özəl bölmədə investisiya fəaliyyətinin stimullaşdırılması məqsədilə yaradılmışdır və investisiya qoyduğu müəssisələrin nizamnamə kapitalında üstün iştiraka malik ola bilməz. Fikrimizcə, İnvestisiya Şirkətinin hüquqlarının genişləndirilməsinin investisiya fəallığının artırılması baxımından mühüm əhəmiyyəti vardır. Belə ki, ölkədə formalaşmış təsərrüfatçılıq ənənələri portfel investisiyası həyata keçirməklə özəl bölmənin inkişafını dəstəkləmək imkanlarını məhdudlaşdırır. Bu baxımdan, İnvestisiya Şirkətinə ilkin dövrlərdə nizamnamə kapitalında üstün paya malik yeni müəssisələrin yaradılması hüquqlarının verilməsi məqsədəuyğundur.

Hazırda ölkədə həyata keçirilən investisiya qoyuluşlarının böyük hissəsi müəssisə və təşkilatların öz vəsaitləri tərəfindən həyata keçirilir. Belə şəraitdə prioritet sahələrdə fəaliyyət göstərən müəssisə və təşkilatların investisiya potensialını genişləndirmək məqsədilə mənfəətdən güzəştlərin verilməsi məqsədəuyğundur. Bu güzəştlər sahələrin prioritetlik səviyyəsindən asılı olaraq fərqlənə bilər. Digər tərəfdən, ölkədə xarici ticarət siyasəti ilə investisiya siyasətinin əlaqələndirilməsi vacibdir.

Müasir şəraitdə dövlət investisiya siyasətinin əsas məqsədi kapital bazarında elə bir təklifin yaradılması və formalaşmasıdır ki, onun səviyyəsi iqtisadiyyatı müəyyən həcmdə investisiya resursları ilə təmin edə bilsin. Bu isə ölkədə maliyyə bazarının formalaşmasından və investisiya qoyuluşlarının mənimsənilməsini təmin edən təsərrüfat subyektlərinin mövcudluğundan asılıdır. Fikrimizcə, yerli

bankların maliyyə imkanlarının artırılmasında və ev təsərrüfatlarının əmanətlərinin banklara cəlb edilməsində əmanətlərin sığortalanması sisteminin tətbiqinin mühüm əhəmiyyəti vardır. Bu sistemin tətbiqi banklara cəlb edilən əmanətlərlə əlaqədar riskləri aşağı salmağa imkan verər.

Azərbaycanda iqtisadi inkişafa nail olmağın və iqtisadi fəallığın artırılmasının zəruri şərtlərindən biri investisiya mühitinin yaxşılaşdırılmasına nail olmaqdır. Bunun üçün isə aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

- xüsusi mülkiyyətin qorunması mexanizminin və korporativ idarəetmənin təkmilləşdirilməsi;

- investisiya fəaliyyətinin hüquqi normativ bazasının təkmilləşdirilməsi və stabilliyinin təmin edilməsi;

- mülkiyyət formasından asılı olmayaraq bütün investorlar üçün əlverişli rəqabət mühitinin yaradılması;

- investorlar tərəfindən investisiya obyektlərinin seçimi və təhlilini asanlaşdırmaq məqsədilə müəssisələr haqqında informasiya təminatı sisteminin təkmilləşdirilməsi;

- əmanətlərin investisiyalara səmərəli transformasiyasını təmin edən müasir institutsional infrastrukturun inkişafının dövlət tərəfindən dəstəklənməsi;

- mühasibat uçotunun və statistikanın beynəlxalq standartlar əsasında təkmilləşdirilməsinə yönəldilmiş tədbirlərin davam etdirilməsi.

Beləliklə, yuxarıda qeyd edilənlərin nəzərə alınması və təklif edilmiş tədbirlərin həyata keçirilməsi ölkədə investisiya siyasətinin səmərəliliyinin yüksəldilməsinə və iqtisadi fəallığın artmasına səbəb olar.

Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi məqalə və tezislərdə öz əksini tapmışdır:

1. Dövlət investisiya qoyuluşlarının səmərəliliyinin qiymətləndirilməsi məsələləri. "İqtisadiyyat və həyat" jurnalı, №9-10, Bakı, 2006, 0,4 ç.v.;

2. İnvestisiya fəallığının təmin olunmasının bəzi nəzəri məsələləri. Azərbaycan Elmi-Tədqiqat Kənd Təsərrüfatının İqtisadiyyatı və Təşkili İnstitutunun elmi əsərləri, № 2, Bakı, 2006, 0,4 ç.v.;

3. Bazar münasibətləri şəraitində investisiya siyasətinin formalaşması xüsusiyyətləri. "İqtisadiyyat və Audit" jurnalı, №12, Bakı, 2006, 0,6 ç.v.;

4. Azərbaycanda neft kontraktlarının investisiya fəallığına təsirinin qiymətləndirilməsi. Qloballaşma prosesində Qafqaz və Mərkəzi Asiya mövzusunda II Beynəlxalq konqres. Qafqaz Universiteti, Bakı, 2007, 0,4 ç.v.;

5. Новые инвестиционные возможности развития нефтяной индустрии Азербайджана. Международная конференция «Стратегия качества в промышленности и образовании». Варна, Болгария, 2007, 0,2 ç.v.

6. V.E.Süleymanov. Azərbaycanda investisiya mühitinin qiymətləndirilməsi və onun təkmilləşdirilməsi istiqamətləri. Vergilər Nazirliyinin Vergi xəbərləri

jurnalı, Bakı, 2009, 0,5 ç.v.;

7. V.E.Süleymanov. Qlobal maliyyə böhranı şəraitində Azərbaycanda investisiya fəallığının dövlət tərəfindən stimullaşdırılması məsələləri. Azərbaycan MEA-nın rəyasət heyətinin «Азербайджан и азербайджанцы» jurnalı, Bakı, 2009, 0,5 ç.v.



**Сулейманов Вургун Эльхан оглы**

# «Вопросы повышения эффективности государственной инвестиционной деятельности»

## РЕЗЮМЕ

Одной из основных задач, стоящих перед государством в современном периоде является создание благоприятной среды для инвестиционной деятельности в стране и стимулировании инвестиционной деятельности частного сектора. Для рационального решения этих вопросов в условиях рыночных отношений должны оптимально использоваться методы регулирования инвестиционной деятельности, а также должны быть связаны цели, поставленные государством в сфере инвестиционной деятельности с мероприятиями, осуществляемыми в сфере налогообложения, таможни и др.

Цель исследования - установление путей повышения плодотворности инвестиционной политики на основе его комплексного анализа, осуществляемой государством в условиях рыночных отношений, а также разработка предложений и рекомендаций в этом направлении, обоснованных с научной точки зрения.

В исследовательской работе раскрыта сущность инвестиции в условиях рыночных отношений, установлена ее роль в экономическом развитии, установлены объективные условия и основы регулирования государством инвестиционной деятельности, установлены особенности формирования государственной инвестиционной политики, проведен комплексный анализ существующего положения инвестиционной деятельности и инвестиционной среды в стране, оценена плодотворность государственной инвестиционной политики, обоснованы приоритетные пути инвестиционных вложений, а также разработаны предложения и рекомендации по повышению плодотворности государственной инвестиционной политики и улучшению инвестиционной среды.

Использование основных положений и заключений исследования, предложений и рекомендаций, выдвинутых в работе, будут способствовать повышению плодотворности государственной инвестиционной политики, улучшению инвестиционной среды.

**Suleymanov Vurgun Elkhan ogli**

## «The objectives for the improvement of effectiveness of state investment policy»

### Summary

The main responsibility of a country in the modern world is to establish a favorable investment environment and to stimulate investment of private sector. Methodology of regulation of investment has to be utilized effectively in order to efficiently deal with these issues in a free market economy. Furthermore, measures taken in the field of taxes, customs and so forth. are to be connected with objectives set forth by the government in the sphere of investment.

The main goal of the research is to determine the ways on how to upgrade the efficiency of investment policy of the state based on complex analysis, and eventually to make scientifically-founded proposals and recommendations.

The research examines the essence and the role of investment in economic development. It further defines the basis and the requirements of regulation of investment by the state, and moreover it determines the characteristics of formation of state-led investment policy. In addition, it entirely analyzes the current situation of investment, and ultimately it estimates the efficiency of investment policy of the state. Moreover, the research deals with the priorities of investment and suggests proposals and recommendations on improving the efficiency of investment policy of the state and on upgrading the investment environment.

Proposals and recommendations presented in the research will bring about development of investment environment and improvement of efficiency of investment policy of the state.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ
ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ

*На правах рукописи*

СУЛЕЙМАНОВ ВУРГУН ЭЛЬХАН ОГЛЫ

# ВОПРОСЫ ПОВЫШЕНИЯ ЭФФЕКТИВНОСТИ ГОСУДАРСТВЕННОЙ ИНВЕСТИЦИОННОЙ ДЕЯТЕЛЬНОСТИ

Специальность: 08.00.05 – "Экономика и управление народным хозяйством (макроэкономика)"

А В Т О Р Е Ф Е Р А Т

диссертации по присуждению ученой степени
кандидата экономических наук

БАКУ - 2009